*Layihə*

**«Şəffaflıq naminə» Koalisiyası haqqında**

**ƏSASNAMƏ**

## 1. Koalisiyanın məqsədləri

Koalisiyanın məqsədləri aşağıdakılardır:

- Azərbaycanda dövlət hakimiyyətinin bütün şaxələrinin, eləcə də qeyri-hökumət qurumlarının (siyasi partiyalar, QHT, KİV, yaradıcı ittifaqlar, dini qurumlar və b.) fəaliyyətində şəffaflığın gücləndirilməsi;
- ölkədə korrupsiyanın səviyyəsinin azaldılması.

## 2. Koalisiyanın iştirakçıları

Koalisiya iştirakçısı istənilən dövlət və qeyri-hökumət qurumları ola bilər.

Koalisiyaya üzvlük könüllüdür.

Koalisiyaya yeni üzvlər Koalisiya üzvlərinin konsensusu əsasında qəbul edilir.

Koalisiyaya uzvluk istənilən anda üzv tərəfindən pozula bilər.

## 3. Koalisiyanın hüquqi statusu

Koalisiya hüquqi şəxs deyildir.

## 4. Koalisiyanın fəaliyyət formaları:

- konfrans, seminar və dəyirmi masaların keçirilməsi;
- qanunvericiliyin təkmilləşdirilməsi üzrə işçi qrupların yaradılması. Müvafiq təkliflərin Milli Məclisdə qəbul olunmasına lazımi səylərin göstərilməsi;
- universitetlər və məktəblər üçün xüsusi antikorrupsiya kurslarının işlənib hazırlanması üzrə işçi qrupların yaradılması. Onların hökumət tərəfindən qəbul olunmasına lazımi səy göstərilməsi;

- dövlət orqanları, qeyri-hökumət və biznes qurumları üçün xüsusi işgüzar etika məcəllələrinin işlənib hazırlanması üzrə işçi qrupların yaradılması. Onların hökumət, parlament, məhkəmə orqanları, siyasi partiyalar, QHT, KİV, özəl şirkətlər tərəfindən qəbul olunmasına lazımi səy göstərilməsi;
- xüsusi ictimai aksiyaların (piketlər, yürüşlər, mitinqlər, ictimai teatr tamaşaları, «korrupsiyasız bir gün», əlaqələndirilmiş yazıların KİV-də nəşri, fotosərgilər, karikatura sərgiləri və b.);
- kitabların, kitabçaların, bülletenlərin, plakatların və b. nəşri;
- xarici təcrübənin öyrənilməsi və yayılması;
- beynəlxalq antikorrupsiya aksiyalarında iştirak;
- fəallar üçün treninqlər;
- vətəndaşlara məsləhətlər;
- qanunvericiliklə qadağan edilməmiş digər fəaliyyət formaları.

**5. Koalisiya üzvlərinin hüquqları**

Koalisiya üzvünün aşağıdakı hüquqları var:

- Koalisiyanın iclaslarında iştirak etmək;
- Koalisiyanın fəaliyyət sahəsinə aid bu və ya digər məsələlərin Koalisiyanın iclaslarında baxılması üzrə təkliflər irəli sürmək.

Koalisiya üzvünün Koalisiyanın adından hər hansı bəyanat vermək hüququ yoxdur.

**6. Koalisiya üzvlərinin vəzifələri**

Koalisiya üzvü bu Əsasnaməni rəhbər tutmalıdır.

7. **Koalisiyanın idarəetmə orqanları**

Üzvlərinin sayı 15-i aşmadıqda Koalisiyanın heç bir rəhbər orqanı olmur. Koalisiyanın fəaliyyətini onun bütün üzvlərinin birgə qərarı ilə təyin edilmiş əlaqələndirici təşkil edir.

Koalisiya iclaslarında sədrliyi Koalisiya üzvləri növbə ilə həyata keçirir.

Üzvlərinin sayı 15-dən çox olduqda Koalisiya onun fəaliyyətinin müəyyən istiqaməti üçün məsuliyyət daşıyan bir neçə

katibdən ibarət katiblik yarada, yaxud digər rəhbər orqan təsis edə bilər.

**8. Koalisiya fəaliyyətinin maliyyələşdirilməsi**

Koalisiyanın fəaliyyəti qrantlar, eləcə də Koalisiya üzvlərinin maliyyə vəsaitləri hesabına maliyyələşdirilir.

**9. Bu Əsasnaməyə dəyişiklik edilməsi qaydaları**

Bu Əsasnaməyə dəyişiklik Koalisiya üzvlərinin konsensusu əsasında edilir.

**10. Koalisiyanın ləğv edilməsi**

Koalisiya onun üzvlərinin konsensusu əsasında ləğv edilir.

*Layihə*

# «ŞƏFFAFLIQ NAMİNƏ»
# KOALİSİYASININ YARADILMASI HAQQINDA MEMORANDUM

Biz, Azərbaycanın dövlət və qeyri-hökumət qurumlarının aşağıda imzası olan nümayəndələri

- dövlət və qeyri-hökumət qurumlarının bütün fəaliyyət sahələrində şəffaflığın artması və ölkədə korrupsiyanın səviyyəsinin ardıcıl şəkildə azaldılmasının sosial və iqtisadi əhəmiyyətini;
- dövlət və qeyri-hökumət qurumlarının birgə fəaliyyətinin əsaslı nəticələr əldə etmək üçün olduqca səmərəli ola biləcəyini nəzərə alaraq

«Şəffaflıq naminə» Koalisiyada birləşməyimizi bəyan edirik.

**<u>Məqsədlərimiz</u>**

Koalisiyanın məqsədləri aşağıdakılardır:

- Azərbaycanda dövlət hakimiyyətinin bütün şaxələrinin, eləcə də qeyri-hökumət qurumlarının (siyasi partiyalar, QHT, KİV, yaradıcı ittifaqlar, dini qurumlar və b.) fəaliyyətində şəffaflığın gücləndirilməsi;
- ölkədə korrupsiyaının səviyyəsinin azaldılması.

**<u>Fəaliyyət prinsipləri</u>**

**Əməkdaşlığa açıq olmaq**. Koalisiya istənilən dövlət, qeyri-hökumət qurumları, beynəlxalq QHT, ictimai xadimlər, mütəxəssislər və alimlərlə əməkdaşlıq etməyə hazırdır.

**Qeyri-məhdud üzvlük**. İstənilən ölkə təşkilatı və fiziki şəxs Koalisiya üzvü ola bilər. Üzvlər Koalisiyanın tədbirlərində öz seçimlərinə uyğun iştirak edə bilər.

**Şəffaflıq.** Koalisiyanın fəaliyyəti cəmiyyət üçün tam şəffaf və açıq olacaq.

**Qərar qəbuletmə**. Qərarlar Koalisiya üzvlərinin sadə səs çoxluğu ilə qəbul olunacaq.

**Siyasi məqsədlərin yoxlüğü**. Koalisiya siyasi məqsədlər güdən heç bir fəaliyyətdə iştirak etməyəcək.